## Bölmə 4.1 – Uşaqyönlümü pedaqoqika

### Paylama materialları A: Xüsusi və ya uşaqyönlü pedaqoqika?[i]

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.1 – Uşaqyönlü pedaqoqika
Fəaliyyət 4.1.2 – "Nə üçün inklüziv siniflərdə uşaqyönlü pedaqoqika" təqdimatı

İnklüziv təhsilin tətbiq edilməsində ən çox müzakirə olunan nüanslar direktiv orqan və ya təhsil işçilərinin əlilliyi olan uşaqlar üçün xüsusi kurikulum hazırlaması zərurəti və əlilliyi olan uşaqların müvafiq akkomodasiyalar edilməklə eyni kurikuluma necə uyğunlaşa biləcəyidir. Həmçinin, əlilliyi olan uşaqlara tədris etmək üçün müəllimlər xüsusi pedaqoqikaya dair təlim keçməlidirmi və ya onlar sinifdəki digər uşaqlar üçün olan eyni pedaqoqikadan istifadə etməlidir kimi məsələlər də tez-tez müzakirə mövzusu olur. Gəlin bu müzakirələr ilə bağlı əsas iki suala daha yaxından baxaq.

### 1. Əlilliyi olan uşaqların təhsil ehtiyacları fərqli və ya xüsusidirmi?

Bu sual ilə hüquqa əsaslanan inklüziv təhsilin 2 saylı proqramında əlillik və inklüziv təhsili necə müəyyən edirik mövzusuna qayıdırıq. 2.2 saylı bölmədə əlilliyi olan uşaqlar üçün təhsilə baxışın iki üsulunu müzakirə etdik. İki perspektivdən bəhs etmişik:







Fərdi baxış aşağıdakı ehtimallara əsaslanır:

- Xüsusi və ya fərqli olan bir qrup uşaq müəyyən edilə bilər.
- Bu uşaqlar prolemlərinin öhdəsindən gəlmək üçün xüsusi tədris olunmalıdır.
- Ən yaxşısı oxşar problemlər yaşayan uşaqların bir yerdə təhsil almasıdır.
- Digər uşaqlar normaldır və mövcud təhsil formalarından yararlanırlar.

Bu baxışın mənfi nəticələrini 2.2 saylı bölmədə müzakirə etmişik. Bu yanaşma əlilliyi olan uşaqlardan gözləntiləri aşağı salır və bu da onların öyrənmə nəticələrinə mənfi təsir edir, əlilliyi olan uşaqlara tədris edən müəllimlərin etimadını azaldır, əlilliyi olan uşaqlara yalnız mütəxəssislərin dərs deyə biləcəyi fikrini gücləndirir, ayrıseçkilik və təcrid olunmaya gətirib çıxarır, eləcə də fərdi xüsusiyyətlərə fokuslanmaq bütün uşaqlar üçün tədris və təlimin yaxşılaşdırılması imkanlarını azaldır.

Sosial baxış milli və beynəlxalq hüquqi konsepsiyalar ilə dəstəklənir. Əsas ehtimallara daxildir:

- Yalnız əlilliyi olan deyil, istənilən uşaq məktəbdə çətinliklər yaşaya bilər.
- Bu çətinliklər tədrisin yaxşılaşdırıla bilinməsinə dair üsulları vurğulayır.
- Bu təkmilləşdirmə işləri bütün uşaqlar üçün daha yaxşı təhsil şərtlərinə gətirib çıxara bilər.
- Əlilliyi olan uşaqlarla işləmək üçün mütəxəssisləri gətirmək əvəzinə daha inklüziv olmaq, və təcrübələrini inkişaf etdirmək üçün müəllimlər dəstəklənməlidirlər.

→ Təməl anlayışlar bunlardır - **bütün uşaqlar çətinliklər ilə üzləşir** və ya **müəyyən məqamda təlim ehtiyacları var** və **şərt deyil ki, eyni əilliyə malik uşaqlar eyni təlim ehtiyaclarını bölüşsünlər.**
Buna görə də, **əlilliyi olan uşaqların təhsil ehtiyacları xüsusi və ya fərqli deyil.**

## 2. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoqika varmı?

Əlilliyi olan uşaqların öyrədilməsində xüsusi tədris yanaşması tələb olunurmu və ya müəllim adi tədris yanaşmasından istifadə edə bilərmi – bunlar əvvəl də müzakirə edilib. Bu müzakirədə iki əsas mövqe: "unikal fərq mövqeyi" və "ümumi fərqlilik mövqeyi" var.

- Unikal fərq mövqeyi

Bütün şagirdlərin hər kəs üçün ümumi olan və fərdi şəkildə onlara xas – unikal ehtiyacları var. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoqikanın olduğunu güman etmək yerinə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün uşaqyönlü pedaqoqikadan istifadə edirlər.

- Ümumi fərqlilik mövqeyi

Bütün şagirdlər üçün ümumi və unikal fərdi ehtiyaclardan əlavə, uşaqların yarımqruplarına dair xüsusi ehtiyacları da olur. Lakin uşaqlar yarımqruplara dəqiq bölgü əsasında düşmürlər. Uşaqlar öz yarımqrupları daxilində digər uşaqlar ilə eyni öyrənmə ehtiyaclarını bölüşə bilərlər (məsələn (“görmə zəifliyi olan uşaqlar”), lakin bu yarım qrupun xaricindəki digər uşaqlar ilə ümumi və ya onlar üçün unikal olan öyrənmə ehtiyaclarını paylaşa bilərlər.

→ Ümumilikdə, müəllimlərin əlilliyi olan uşaqlar üçün xüsusi və fərqli tədris yanaşması olduğuna inanmalarının təşviq edilməsi faydalı hesab edilmir. Müəllimlər adi siniflərdə bütün uşaqları qəbul etmək və onlara dərs demək istiqamətində təşviq olunmalıdır. **“Yüksək intensivlik səviyyələri”** və **“aşağı intensivlik səviyyələrinə”** malik **“davamlı tədris yanaşması”** anlayışları müəllimlərin siniflərində istifadə etdikləri tədris yanaşmasının bütün uşaqlar üçün eyni olmasını vurğulamaq üçün təqdim edilir. Bununla belə, bəzi uşaqlar üçün bu yanaşma daha çox və ya daha az intensivlikdə istifadə olunur.

→ Əlilliyi olan uşaqların təməl olaraq fərqli və ya xüsusi öyrənmə ehtiyacları olmadığından bu cür uşaqlar üçün xüsusi pedaqoqika yoxdur. İnklüziv siniflərdə müəllimlər tədris və təlimin ümumi keyfiyyətini artırmaq məqsədilə bütün

uşaqların öyrənmə ehtiyaclarını qarşılamaq üçün **uşaqyönlü pedaqoqikadan** istifadə edir.

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.1 – Uşaqyönlü pedaqoqika
Fəaliyyət 4.2.2 – Təqdimat: 'Uşaqyönlü pedaqoqika nədir?'

## Uşaqyönlü pedaqoqikanın əsas xüsusiyyətləri

### 1. Faydalı təlim imkanları

Şagirdlər dərslərin və məktəb fəaliyyətlərinin məqsədlərini başa düşdükdə daha çox motivasiya olurlar. Uşaqların gündəlik həyatları ilə bağlı nəyi və necə öyrənməni əlaqələndirmək mütləqdir. Bu yalnız müəllimlər şagirdləri ilə əlaqə qurarsa, onlar üçün nəyin mühüm olduğunu və uşaqların bir-biri və həmçinin müəllimi ilə mübadilə etməsi üçün təhlükəsiz hiss edəcəyi rahat bir atmosfer yaranarsa mümkün ola billər. Bu cür əlaqənin yaradılmasına dair bəzi fikirlərə daxildir:

- Dərsin şagirdlərin əvvəlki bilik və bacarıqlarına əsasən qurulması. Müəllimlər şagirdləri çox yaxşı tanımalı və onlara dərsə mühüm töhfələr vermək və öz biliklərini nümayiş etdirmək üçün imkan yaratmalıdır.
- Yeni anlayışları izah edərkən uşaqların gündəlik təcrübələrindən istifadə etmək. Bu uşaqlar üçün dərsin müvafiqliyini artıracaq. Şagirdləri, evdən əşyalar gətirməyə, öz hekayə və təcrübələrini paylaşmağa ruhlandırmaq olar. Həmçinin, müəllim şagirdlərinin yaşam şərtlərindən və mədəniyyətindən xəbərdar olmalıdır.
- Gündəlik situasiyalarda öyrəndiklərini təcrübə etmək üçün uşaqlara imkan tanımaqla təlimi məqsədyönlü edin
- Uşaqların bir fəndə öyrəndiklərinin digər fəndə qazandıqları bilik ilə əlaqələndirilməsi. Əksər fənlər bir-biri ilə əlaqəlidir və bu əlaqəni göstərmək zəruridir.

### 2. Çoxsaylı təlim üsulları

Uşaqlar müxtəlif yollarla öyrənirlər (mümkün öyrənmə üsulu nəzərdən keçirmək üçün paylama materialları C-ə baxın). Əksər uşaqlar öyrənmə prosesində öyrənmə üçün olan fərqli yolların hamısından istifadə edir. Müəllimlər bütün uşaqların iştirakını və birlikdə öyrənməni təmin etmək üçün müxtəlif təlim yanaşmalarından istifadə edərək təlimin çoxsaylı üsullarını asanlaşdırmalıdırlar. Uşaqyönlü pedaqoqikada müəllimlər düşünən təcrübəçilərə çevrilirlər. Onlar daim düşünməyə sövq edilirlər;

- Onların sinifində uşaqlar ilə ən rahat təlim üsulu hansıdır?
- Bəzi uşaqların başqaları kimi eyni sürətlə yol qət etməməsinin səbəbləri
- Bütün uşaqların öyrənmə və nailiyyət qazanmasını təmin etmək üçün istifadə olunan strategiya və üsullar
- Onların hamı üçün əlyetərliliyini təmin etmək üçün resurslar, fəaliyyətlər və ya yanaşmalarda tənzimləmələrin edilməsi
- Uşaqların cəlb olunması və motivasiyası, eləcə də onların əvvəlki təcrübə və bacarıqları vasitəsilə buna necə təsir etmək olar?

- Mədəniyyətə bağlı amillər (evdən gələn tərbiyə) uşaqlar ilə müəllimlər və valideynlər arasında qarşılıqlı əlaqəni necə formalaşdırır? Dərsin mövzusu, şagirdlərin xüsusi öyrənmə yolları, məzmun və müəllimlərin bacarıqları və s. kimi bir çox amillərdən asılı olaraq müəllimlər müxtəlif tədris yanaşmalarından istifadə edəcəklər, məsələn:
- Uşaqlara biliklərini kəşf etmək, ifadə etmək, öyrənmək və möhkəmləndirmək üçün imkanlar yaratmaqla
- Uşaqlara öz tədqiqatlarını aparması və problemi həll etmək üçün bacarıqlarından istifadə etməsində sərbəstlik verilməsi və təbii istedadlarından ən yaxşı şəkildə istifadə etmələri məqsədilə istiqamətləndirilməsi

### 3. Birgə öyrənmə

Birgə öyrənmə daxilində şagirdlər ümumi hədəflər naminə çalışmaqla məsuliyyəti və resursları bölüşürlər. Birgə qrup işinin uşaqların əsas anlayışları yaxşı qavramasında və işə və bir-birinə qarşı müsbət münasibətlərin qurulmasına güclü təsiri ola bilər. Yaxşı tətbiq edildiyində qrup işi müəllimlərə fərdi və kiçik qruplar ilə daha çox vaxt keçirməyə imkan verir.

Birgə öyrənmə və qrup işinə dair müxtəlif yanaşmalar var. Uşaqları necə qruplara bölməyi təyin etmək müəllimlər üçün mühümdür. İnklüziv siniflərdə, xüsusilə əlilliyi olan uşaqları öyrədərkən qrup işinin səmərəli olmağını təmin etmək üçün yaxşı olar ki, bacarıqların səviyyələrinə görə qruplaşdırılma aparılmasın. Əlilliyi olan bütün uşaqları bir qrupa yığmaq çox qürurqırıcı ola bilər və bu, uşaqlara əməkdaşlıq və öyrənmə üçün az imkanlar verir. Müxtəlif təməl biliklərə malik uşaqlardan ibarət qrup yaratmaq hər kəs üçün daha öyrədici imkanlar təmin edir.

Müəllimlər uşaqların risk alarkən və töhfə verərkən dəstəkləndikləri və özlərini dəyərli hiss edəcəkləri mühit yaratmalıdır. Fəaliyyətin hər kəs üçün anlamlı olduğunu təmin etmək məqsədilə qrup işi diqqətlə planlaşdırılmalı və lazım olduqda tapşırıq zamanı müəllim öz köməyini göstərə bilməlidir. Uşaqlar qrup işini müvəffəqiyyətlə tamamlamaq üçün müəyyən bacarıqlara yiyələnməli və onları istifadə etməlidirlər (çalışmanın başa düşülməsi, tapşırığın və resursların bölgüsü, növbələşmə, bir-birinin töhfələrini dəyərləndirmək, ideyalarını ifadə etmək və fəal qulaq asmaq və s.).

Uşaqların hər biri müəyyən bir vəzifəni icra edə bilər. Vəzifələrin dəyişməsini, məsələn, hər kəsin növbə ilə qrup rəhbəri olmasını təmin edin. Həmçinin qrup işində əlilliyi olan uşaqların dəyərli və həlledici vəzifə almaları mühümdür. Adətən qrup işinə başlamazdan öncə təməl qaydaların qoyulması zəruri ola bilər.

Qrup işinin faydalı olması üçün qrupda elə şərait yaradılmalıdır ki, uşaqlar fərdi şəkildə tapşırıqları tamamlamasınlar və gərəkdiyində digərinə kömək etsinlər. Ən maraqlı təlim təcrübələri uşaqlar bir-birilərindən asılı olduqları və tapşırığı tamamlamaq üçün əməkdaşlıq etməli olduqları an alınır. Qrup işi daxilində bir-birindən asıllığın müxtəlif formalarına aiddir:

- Hədəf asıllığı: qrupun tək bir hədəfi var

- Mükafat asıllığı: hər bir uşağın müxtəlif resursları var (materiallar və bilik) və tapşırığı tamamlamaq üçün onlar birləşdirilməlidir
- Vəzifə asıllığı: tapşırığın tamamlanması üçün hər uşağın müxtəlif vəzifələri var (vaxta nəzarət edən, hesabat verən və s.).

## 4. Cəlbedici və hər kəs üçün əlçatan olan öyrənmə mühiti

Sinif və məktəbin mühiti uşaqyönlü təlim və tədrisi dəstəkləyə bilər. Uşaqyönlü təlim məkanları bütün uşaqlar üçün nəzərdə tutulmalı, hər kəs üçün təhlükəsiz və hər şagirdin bərabər iştirakı və özünü kəşf etməsinə yönəlik olmalıdır.

Hər kəs üçün cəlbedici və əlçatan təlim məkanları yaratmaq zəruridir, amma bu son hədəf deyil, əsas məqsəd: keyfiyyətli təhsil almaq bütün uşaqların hüququdur – bu hüququn dəyərləndirildiyi və həmin hüquqa əsaslanan uşaqyönlü təlim yanaşmasının həyata keçirilməsidir.

Uşaqyönlü təlim məkanlarının bəzi xüsusiyyətləri:

- Fiziki məkan: bütün uşaqların sinif və məktəb daxilində, ətrafda sərbəst hərəkət edə bilmələri, fərdi və qrup şəklində işləmələri və lazım olduqda öyrənmə vasitələrinə yanaşmalarının təmin ediləsi
- Öyrənmə guşələri: uşaqların müstəqil və ya qrup şəklində öz iradələri ilə öyrənmək üçün sinifinizdə müxtəlif öyrənmə guşələri qurun. Hər bir guşədə resurslar və təlimatlar təqdim edilir. Həmin guşələr şagirdlərə əvvəl öyrəndiklərini zənginləşdirmək, yeni bacarıqlarını təcrübə etmək və yeni anlayışları kəşf etmək üçün şans verir. Şagirdlər öyrənmə guşələrinin planlaşdırılmasında, təşkilində və idarəsində iştirak edə bilər.
- Təqdimat yeri: sinifinizdə bütün uşaqların işlərini nümayiş etdirə biləcəyiniz və fəaliyyətləri haqqında rəy verə biləcəyiniz təqdimat lövhəsi hazırlayın. Təqdimat lövhəsini tez-tez dəyişin və onu tədris vasitəsi kimi istifadə edin.
- Sinif kitabxanası: kitablar çox səmərəli tədris vasitələridir və kitablar, yeni anlayışları öyrənməyə, dillərini inkişaf etdirməyə və məlumatı başa düşməkdə uşaqlara kömək edir. Yerli kitablar və ya uşaqların özlərinin hazırladıqları kitablar da bahalı uşaq kitabları kimi səmərəli ola bilər.

## 5. Qiymətləndirmə

Bütün müəllimlər ilin, rübün, həftənin və ya dərsin müxtəlif zamanlarında şagirdlərinin nə öyrəndiklərini, biliklərini, bacarıqlarını və nəzərlərini necə tətbiq etdiklərini bilmək istəyəcəklər. İnklüziv və uşaqyönlü siniflərdə davamlı formativ qiymətləndirmə ilə bütün uşaqların təlimin müxtəlif üsullarına əsasən qazandıqları bilikləri fərqli üsullarla göstərmək imkanları olacaq. Davamlı qiymətləndirmə, uşaqların dərsi başa düşməsinə əmin olmaları üçün istənilən an dərslərinə düzəliş edə bilən müəllimlərə və daha yaxşı nəticə əldə etmək istəyən uşaqlara verilən rəydir. Qiymətləndirmə müntəzəm olaraq uşaqların güclü və zəif

tərəfləri haqqında valideynlər ilə ünsiyyət qurmağa kömək edir, beləliklə, tədris ili ərzində valideynlər uşaqlarının öyrənmə prosesinə cəlb oluna bilərlər. Bu yanaşma daxilində qiymətləndirmə, tədrisi yönəldən və öyrənməni təşviq edən təhsil prosesi kimi xidmət edir. Bu, "öyrənmənin" qiymətləndirilməsi və "öyrənmə üçün" qiymətləndirmədir. 4.6, 4.7 və 4.8 saylı bölmələr inklüziv siniflərdə uşaqyönlü qiymətləndirməni daha dərindən izah edir.

## 6. Müəllimlərin rolunun dəyişməsi

Daha ənənəvi təhsil quruluşunda müəllimin aydın bir vəzifəsi var: o, uşaqlara məlumat ötürür. Sinifdə daha çox uşaqyönlü yanaşmanı icra etdikdə müəllimin rolu dəyişəcək. Müəllimin daha sabit rolu yoxdur, o vəziyyətə görə uyğunlaşır. Müəllimlər üçün mümkün olan bəzi rollara daxildir:

- Metodist: konstruktiv şəkildə ideyalara töhfə vermək üçün uşaqları təşviq edir və müvafiq təlim imkanları ilə təmin edir.
- Menecer: Bütün uşaqların öz töhfələrini vermələrini təmin etmək üçün müzakirələri planlaşdırır və istiqamətləndirir
- Müşahidəçi: Uşaqlar oynayarkən, tək və ya qrupda çalışarkən onları müşahidə edir. Bu, uşaqları daha yaxşı anlamağa və onlar üçün daha yaxşı öyrənmə fəaliyyətləri yaratmağa kömək edəcək.

## Paylama materialları C: Müxtəlif təlim üslubları[iii]

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.1 – Uşaqyönlü pedaqoqika
Fəaliyyət 4.2.2 – Təqdimat: 'uşaqyönlü pedaqoqika nədir?'

İstisnasız bütün uşaqlar öyrənə bilərlər. Həyatlarının müxtəlif mərhələlərində onların necə öyrənmələri müxtəlif mövzular üzrə fərqli ola bilər. Bəzi uşaqlar müəllimə qulaq asmaqla öyrənir, digərləri isə vizual vəsaitlərdən və ya qrup müzakirələrindən istifadə edərək çalışmalar etməyə üstünlük verə bilər. Yeddi müxtəlif öyrənmə üsulu təsnifləndirilə bilər.

| Üsul | Xüsusiyyətləri |
|---|---|
| **Sözlü və ya linqvistik** | Uşaqlar yaddaş və xatırlama, danışılan və ya yazılan sözlər ilə öyrənir və düşünürlər |
| **Məntiqi və ya riyazi** | Uşaqlar mülahizələr və hesablamalar vasitəsilə öyrənir. Onlar rahatlıqla rəqəmlərdən istifadə edir, mücərrəd nümunələri qəbul edir və dəqiq ölçmələr aparırlar |
| **Vizual və ya məkan** | Uşaqlar vizual (əyani) vasitələrlə öyrənir və düşünür. Onlar incəsənəti sevir, asanlıqla xəritələri, diaqramları və qrafikləri oxuya bilirlər |
| **Bədən və ya kineestetik** | Uşaqlar hərəkət etməklə, oyun və teatr səhnəcikləri ilə öyrənir |
| **Musiqi və ya ritm** | Uşaqlar səslər, ritm, qafiyə və təkrarlamaq ilə öyrənirlər |
| **Şəxsiyyətlərarası** | Uşaqlar qrup işi vasitəsilə öyrənirlər. Onlar asanlıqla sosial vəziyyətləri başa düşür və asanlıqla əlaqələr qururlar |
| **Şəxsiyyətdaxili** | Uşaqlar özü təhlil edərək və öz fikrini cəmləyərək öyrənir. Onlar tək işləməyi xoşlayır və öz hisslərindən, güclü və zəif tərəflərindən xəbərləri var. |

Müəllimin əzbərləmə təlim metodunun istifadə etdiyi sinifdə öyrədilən məzmunu yenidən və yenidən təkrarlayan tədris yanaşması güman ki, şagirdlərin kiçik qruplarını əhatə edəcək (sözlü öyrənməyə üstünlük verənləri). Digər uşaqlar isə dərsi izləməkdə daha çox çətinliklərlə üzləşə bilərlər. Burada, mütləq deyil ki, həmin uşaqların hansısa əlilliyi və ya xüsusi ehtiyacları olsun.

## Paylama materialları D: Oxu və video tapşırıqlar

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.1 – Uşaqyönlü pedaqoqika
Yekun qeydlər

## Oxu tapşırıqları

Oxu 1: UTD prinsipləri

4.2 saylı bölməyə başlamazdan öncə birinci oxu tapşırığı **ilə “Universal təlim dizaynı” adlı Bölmə 4.2-də Paylama materialları C: UTD prinsipləri, “Kurikulum planlaması”** başlıqlı **Fəaliyyət 4.2.3-də** tanış ola bilərsiniz. Burada universal təlim dizaynının üç (3) prinsipi müzakirə olunur; NƏDİR? – burada onun haqqında, NECƏ? – onun tətbiqindən, NƏ ÜÇÜNDÜR? – isə onun əhəmiyyətindən və təcrübədəki nümunələrindən bəhs edilir.

Oxu 2: UTD yoxlama sualları siyahısı

4.2 saylı bölməyə başlamazdan öncə ikinci oxu tapşırığı ilə **“Universal təlim dizaynı” adlı Bölmə 4.2-də Paylama materialları D: UTD yoxlama sualları siyahısı, “Kurikulum planlaması”** başlıqlı **Fəaliyyət 4.2.3-də** tanış ola bilərsiniz. Burada sinifdə UTD-nin üç (3) prinsipinin necə tətbiq edilməsinə dair təfsilatlı yoxlama sualları siyahısı təqdim edilir. Bu üç (3) prinsipə müvafiq hansı növ adaptasiyaların aparıla biləcəyi üzrə təlimatlar verilir.

Oxu 3: UTD nümunələri

4.2 saylı bölməyə başlamazdan öncə üçüncü oxu tapşırığı ilə **“Universal təlim dizaynı” adlı Bölmə 4.2-də Paylama materialları E: UTD nümunələri, “Kurikulum planlaması”** başlıqlı **Fəaliyyət 4.2.3-də** tanış ola bilərsiniz. Bu material, təcrübədə müəllimlər tərəfindən UTD prinsiplərinin necə tətbiq edildiyini nümayiş etdirən keys nümunələrini əks etdirir.

## Video tapşırıqlar

**Video 1:** https://m.youtube.com/watch?v=pGLTJw0GSxk

Universal təlim dizaynı üzrə Milli Mərkəzin ‘UTD: Prinsiplər və təcrübə” videosuna baxın (“Youtube” platformasında tapa bilərsiniz). Aşağıdakı suallar sizin müşahidələrinizə kömək edəcək:

1. UTD nədir?
2. Sinif təcrübəsi üçün UTD-nin üç (3) prinsipi nəyi ifadə edir?

**Video 2:** https://www.teachingchannel.org/video/pre-k-math-lesson

Tədris kanalının “Gəlin sayaq! Çoxsaylı yollarla rəqəmlərin öyrənilməsi” videosuna baxın (internet səhifələrində baxa bilərsiniz). Aşağıdakı suallar sizin müşahidələrinizə kömək edəcək:

1. Eyni anlayışı çoxsaylı yollarla öyrətmək niyə faydalıdır?
2. Müxtəlif təlim üslublarının tədrisinə dair xanım Kunqudan nə öyrənə bilərsiniz?
3. Xanım Kunqu əməkdaşlığı necə təşviq edir?

**Müəllimlərin rolunun dəyişməsi**

Ənənəvi təhsil quruluşunda müəllimin konkret bir vəzifəsi var: o, uşaqlara məlumat ötürür. Lakin sinifdə uşaqyönümlü yanaşma icra etdikdə müəllimin rolu dəyişir. Uşaqyönümlü pedaqogikada müəllimin sabit rolu yoxdur, müəllimin rolu vəziyyətə uyğun olaraq dəyişir. Müəllimin icra etdiyi rollara aşağıdakılar daxildir:

*Metodist:* Müəllim bir metodist kimi konstruktiv şəkildə ideyalara töhfə vermək üçün uşaqları təşviq edir və müvafiq təlim imkanları ilə təmin edir.

*Menecer:* Müəllim bir menecer kimi bütün uşaqların təlimdə iştirakını təmin etmək üçün müzakirələri planlaşdırır və istiqamətləndirir

*Müşahidəçi:* Müəllim müşahidəçi kimi uşaqlar oynayarkən, tək və ya qrupda çalışarkən onları müşahidə edir və lazımi nəticələr çıxarır. Bu, uşaqları daha yaxşı anlamağa və onlar üçün daha yaxşı öyrənmə fəaliyyəti yaratmağa kömək edir.

İstisnasız bütün uşaqlar öyrənə bilərlər. Həyatlarının müxtəlif mərhələlərində onların necə öyrənmələri müxtəlif mövzular üzrə fərqli ola bilər. Bəzi uşaqlar müəllimə qulaq asmaqla öyrənir, digərləri isə vizual vəsaitlərdən və ya qrup müzakirələrindən istifadə edərək çalışmalar etməyə üstünlük verə bilər.

Bir çoxlarımız bilirik ki, insanlar öyrənmə yollarına görə 3 ümumi kateqoriyaya bölünür:

1. Vizuallar
2. Audiallar
3. Kinestetiklər.

Qeyd etmək lazımdır ki, adı çəkilən bu üç ümumi kateqoriyadan başqa insan potensialına dair bir çox nəzəriyyə və yanaşmalar yaradılmışdır. Bunlardan biri Harvard Universitetinin təhsil üzrə professoru Doktor Hovard Qardner tərəfindən irəli sürülmüş "Çoxşaxəli intellekt nəzəriyyəsi"dir. Qardnerin ilkin olaraq psixologiya, daha sonralar isə insan idrakı sahəsində apardığı tədqiqat işləri 6 ilkin intellekt növünün müəyyən olunmasına gətirib çıxarmışdır. Bu gün artıq 9 intellekt növü barədə danışırıq, lakin bu siyahının yeni intellekt növləri ilə genişlənəcəyi də istisna deyil. Bu intellekt növləri fərdin unikal qabiliyyətlərini və onun intellektual bacarıqlarını hansı formada nümayiş etdirməyi üstün tutmasını müəyyən edir.

**H.Qardnerin "Çoxşaxəli intellekt nəzəriyyəsi"**

**1. Verbal-linqvistik intellekt** - yaxşı inkişaf etmiş verbal qabiliyyət və sözlərdə səslərə, mənaya və ritmə həssaslıq.
**2. Məntiqi-riyazi intellekt** - konseptual və abstrakt düşünmə qabiliyyəti; məntiqi və ədədi nümunələri tanımaq və seçmək bacarığı.
**3. Məkan-vizual intellekti** - şəkil və rəsmlər ilə düşünmək, dəqiq və abstrakt şəkildə vizuallaşdırmaq bacarığı.

**4. Bədən-kinestetik intellekti** - şəxsin öz bədən hərəkətlərini və əşyaları məharətlə idarə etmək qabiliyyəti.
**5. Musiqi-ritmli intellekt** - ritm, keyfiyyətli səs və keyfiyyətli ton yarada bilmək və musiqini dəyərləndirə bilmək qabiliyyəti.
**6.Şəxslərarası intellekt** - digərlərinin əhval-ruhiyyəsi, motivasiyası və istəklərini müəyyənləşdirə bilmək və ona uyğun şəkildə cavab vermək qabiliyyəti.
**7. Fərddaxili intellekt** - fərdin öz daxili hissləri, dəyərləri, inancları və düşünmə proseslərini anlaması və onları aydın şəkildə hiss etmək qabiliyyəti.
**8. Naturalist intellekt** -bitkilər, heyvanlar və təbiətdəki digər obyektləri müəyyənləşdirmək və kateqoriyalara bölə bilmək qabiliyyəti.
**9. Ekzistensial intellekt** - insan varlığı barədə dərin suallar vermək qabiliyyəti: Həyatın mənası nədir? Biz niyə ölürük? Biz bu planetə necə gəlmişik? və s.

***İndi isə bu nəzəriyyəyə daha ətraflı nəzər salaq:***

***Verbal-linqvistik intellekt ("söz sərrafı" və ya "ziyalı")***

Bu intellekt növünə dil vasitəsilə (oxumaq, yazmaq və danışmaq vasitəsilə) əldə edilən "bilgi" daxildir. Həm yazıda, həm də şifahi nitqdə sözlərin mənası və sıralanmasını anlama və dildən düzgün istifadənin yollarını bilmək verbal-linqvistik intellektin göstəricilərinə aid edilir. Bura həm də dilin sosial-mədəni xırdalıqlarını anlama, idiomlar, söz oyunları və linqvistik yumor da daxildir. Əgər sizdə bu intellekt növü güclü inkişaf edibsə, o zaman sizin oxumaq, danışmaq və yazmaq bacarıqlarınız da güclü inkişaf etmişdir və siz sözlər vasitəsilə düşünürsünüz. Yəqin ki, müxtəlif janrlarda ədəbiyyat oxumağı, söz oyunları oynamağı, şeirlər və hekayələr yazmağı, insanlarla müzakirələrdə iştirak etməyi, diskussiya aparmağı, formal çıxışlar etməyi, yaradıcı yazılar yazmağı və zarafat etməyi sevirsiniz. Böyük ehtimal ki, siz özünüzü aydın ifadə edir və digərləri bunu etməyi bacarmayanda qıcıqlanırsınız! Siz yeni sözlər öyrənməyi sevir, yazılı işlərdə yaxşı nəticələrə nail olur və oxuduğunuz hər şeyi yaxşı qavrayırsınız.

**Məntiqi-riyazi İntellekt** ***("riyazi" beyinli və ya "məntiqli")***

Bu intellekt növünə malik insanlar həyatımızda baş verən müxtəlif qanunauyğunluğu tapmaq və anlamaq üçün rəqəmlər, riyaziyyat və məntiqdən istifadə edir. Bunlara düşüncə, vizual və rəng nümunələrini daxil etmək olar. Məntiqi-riyazi intellekt növü real həyatdakı konkret qanunauyğunluqla başlayır, lakin gördüyümüz bütün qanunauyğunluqlar arasındakı əlaqələri başa düşməyə çalışdıqca, get-gedə abstraklaşır. Əgər siz məntiqi-riyazi intellektə maliksinizsə, onda daha çox konseptual və abstrakt düşünməyə meyillisiniz, həmçinin digərlərinin gözdən qaçırdığı nüansları və əlaqələri görməyi bacarırsınız. Yəqin ki, təcrübələr aparmağı, tapmacalar və məsələlər həll etməyi, kosmik suallar verməyi, mövcud şəraiti və insanların davranışlarını təhlil etməyi sevirsiniz. Böyük ehtimal ki, siz, rəqəmlərlə və riyazi düsturlarla işləməyi, riyazi əməliyyatlar aparmağı xoşlayır, eləcə də mürəkkəb məsələləri həll etməyin gətirdiyi çətinliyi sevirsiniz. Siz sistemli və mütəşəkkil xarakterə malik olmaqla yanaşı, həm də etdiyiniz hər bir hərəkət və

düşüncənizi həmişə məntiqlə əsaslandırmağı, hərəkət və düşüncələrinizin “niyəsini” izah etməyi bacarırsınız.

***Məkan-vizual intellekti (“incəsənət hissi olan” və ya “təsvir etməyi bacaran”)***

Biz tez-tez “Bir dəfə görmək yüz dəfə eşitməkdən yaxşıdır” və ya “Görəndə inanaram” kimi cümlələrdən istifadə edirik. Bu intellekt növü gözlərimizlə gördüyümüz forma, şəkil, model, dizayn və teksturalar vasitəsilə, həm də bizim xəyalımızda canlandıra bildiyimiz bütün şəkillər vasitəsilə əldə olunan “biliyi” təmsil edir. Əgər sizdə bu intellekt növü güclü inkişaf edibsə, siz şəkillər və rəsmlər vasitəsilə düşünməyə meyillisiniz. Eləcə də, ətrafınızdakı müxtəlif obyekt, forma, rəng, teksturalar və modelləri çox yaxşı fərqləndirirsiniz. Siz maraqlı dizayn və modellər çəkməyi, rəngləməyi, parçalarla, çertyojlarla, rəngli markerlər və gillə işləməyi sevirsiniz. Məkan-vizual intellekti güclü olan fərdlər pazllar quraşdırmağı, xəritədən istifadə etməyi və ilk dəfə olduqları məkanlarda yolu özləri tapmağı xoşlayırlar. Həmçinin siz hansı rənglərin bir-birinə yaraşdığı, hansı teksturaların daha xoşagələn olması və otağın necə bəzədilməli olduğu barədə konkret fikirlərə maliksiniz. Böyük ehtimal ki, siz həmçinin vizuallaşdırmaq, təsəvvür etmək, zehni şəkillər formalaşdırmaq və s. bu kimi təxəyyül tələb edən tapşırıqların öhdəsindən yaxşı gəlirsiniz.

**Fərddaxili intellekt (“Öz daxili aləminə bələd” və ya “güclü introspeksiyası olan”)**

Bu intellekt növünün mərkəzində bizim özümüzə kənardan baxa bilmək və öz həyatımız barədə düşünə bilmək imkanı yaradan fərdi refleksiya bacarıqlarımız durur. Fərddaxili intellekt həm də introspektiv intellekt adlanır. Bu intellekt növünə əşyaların mənasını, məqsədini və önəmini öyrənməyə bizdə istək yaradan unikal insani meylimiz də daxildir. Fərddaxili intellekt daxili dünyamız, emosiya, dəyər və inanclarımızı anlamaq və həqiqi ruhsallığa çatmaq üçün müxtəlif axtarışları özünə daxil edir.Əgər bu intellekt növü sizdə güclü inkişaf edibsə, siz tək işləməyi sevirsiniz. Bu xüsusiyyətiniz bəzən sizi insanlarla ünsiyyətdən uzaq tuta bilər.

Böyük ehtimal ki, siz düşünən və özünü yaxşı dərk edən şəxssiniz. Elə bu səbəbdən də daxili hissləriniz, dəyərləriniz, inanclarınız və düşünmə proseslərinizə bağlısınız və onlara hər zaman “diqqətlə qulaq asmağa” meyillisiniz. Bir çox hallarda müdrik və gözüaçıq, güclü intuisiyaya malik və bir işi davam etdirərkən xarici motivasiya faktorları ilə yox, daha çox daxili motivasiyaya malik şəxssiniz. Siz iradəli, özünə əmin və demək olar ki, hər bir mövzuda konkret və düşünülmüş fikirlərə malik şəxssiniz. Yəqin ki, digərləri məsləhət almaq və ya çıxış yolu tapmaq üçün tez-tez sizə müraciət edir.

**Bədən-kinestetik intellekti (fiziki hərəkətlərində istedadlı olan)**

Biz tez-tez “edə-edə öyrənmək” haqqında danışırıq. Bu növ intellekt fiziki hərəkət və fərdin öz fiziki bədənini yaxşı “bilməsi” vasitəsilə təzahür edir. Məsələn, bədənimiz necə velosiped sürməyi, iki maşın arasında maşını necə saxlamağı, vals oynamağı, atılan əşyanı necə tutmağı, yeriyərkən balansı necə saxlamağı və kompüter klaviaturasında hərflərin harada yerləşdiyini bilməsi kimi

fəaliyyətləri necəsə yerinə yetirir (və heç də həmişə şüurlu və məntiqli ağılla yox).Əgər siz bu intellekt növündə güclüsünüzsə, sizin bədən xüsusiyyətləriniz var. Siz fiziki hərəkəti, rəqs etməyi, əllərinizlə nəyisə düzəltməyi və yaratmağı, eləcə də rola girməyi sevirsiniz. Tez-tez olur ki, siz bir tapşırığı birinci kimdəsə görüb, daha sonra onun hərəkətlərini təqlid edəndə tapşırığı daha yaxşı yerinə yetirirsiniz. Yəqin ki, siz hər növ fiziki oyunları sevir və nəyisə necə etməyin yollarını insanlara nümayiş etdirməyi xoşlayırsınız. Uzun müddət bir yerdə hərəkətsiz oturmaqda çətinlik çəkmək, ətrafınızda baş verən hadisələrdə aktiv iştirak etməyəndə darıxmaq və ya fikri yayınmaq da sizə xas xüsusiyyətlərdir.

**Şəxslərarası intellekt (insanlarla ünsiyyətdə "ağıllı")**

Bu intellekt növü yeni bilikləri insanlar vasitəsilə almağa imkan yaradır. Şəxslərarası intellekt bir çox hallarda bizim digərləri ilə bir komandada işləyərkən və ya ünsiyyətdə olarkən ortaya çıxan "bilgi"yə deyilir. Bu növ intellekt bizdən insanlarla səmərəli ünsiyyət qurmaq üçün lazım olan bir sıra bacarıqları inkişaf etdirməyimizi tələb edir. Əgər bu növ intellekt sizdə daha yaxşı inkişaf edibsə, siz insanlarla qarşılıqlı əlaqələr vasitəsilə öyrənirsiniz. Sizin yəqin ki, çoxlu dostlarınız, insanlara münasibətdə böyük empatiya hissiniz və digərlərinin mövqelərinə anlayış göstərmək kimi xüsusiyyətləriniz vardır. Mümkündür ki, siz hər növ komanda oyunlarını sevir, yaxşı komanda üzvü kimi çıxış edir - yəni, öz yükünüzü özünüz daşıyır və hətta lazım olandan daha artığını da edirsiniz. Siz digərlərinin hiss və fikirlərinə həssas münasibət göstərir və onların düşüncələrindən öz fikirlərinizi formalaşdırmaq üçün istifadə etməyi bacarırsınız. Eləcə də, başqalarını müzakirələrə cəlb etməyi bacarır, münaqişələri həll etməkdə, vasitəçi olmaqda və insanların bir-birinə radikal mövqedə olduğu anlarda güzəşt nöqtəsi tapmağın öhdəsindən uğurla gəlirsiniz.

***Naturalist intellekt (təbiətşünas)***

Naturalist intellekt təbiətdə olarkən baş verənlərdən agah olmaq, müxtəlif təbiət hadisələrini dəyərləndirməyi bacarmaq və təbii ətraf mühiti dərk etmək kimi çoxsaylı "bilgilərə" malik olmaq deməkdir. Bu intellekt növü canlıların növlərini fərqləndirə bilmək, təbii ətraf aləmi və onun fenomenləri ilə ünsiyyətdə olmaq, müxtəlif növ flora və fauna növlərini tanımaq və təsnif etmək bacarığını özünə daxil edir. Əgər naturalist intellekt güclü xüsusiyyətlərinizdəndirsə, sizin çöldə - açıq havada olmağa, heyvanlara, bitkilərə və demək olar ki, istənilən təbii obyektə qarşı dərin sevginiz vardır. Bəzən siz havadan, payızda yarpaqların tökülməsindən, küləyin səsindən, parlaq günəşin istilik saçmasından və ya onun yoxluğundan, həmçinin otaqdakı hansısa həşəratdan hiss olunacaq qədər təsirlənə və ya heyran qala bilərsiniz. Böyük ehtimal ki, uşaq vaxtı böcəkləri, dağ yarpaqlarını, dəniz balıqqulaqlarını və çubuqları yığmaq sizin sevimli məşğuliyyətiniz idi. Ola bilsin ki, əvvəllər siz müxtəlif küçə heyvanlarını evə gətirirdiniz; yəqin ki, elə bu gün də siz evinizdə bir neçə ev heyvanı saxlayır və hələ yenə də bir-ikisini istəyirsiniz. Onu da qeyd etmək lazımdır ki, sizin bütün canlı varlıqlara qarşı simpatiya hissiniz və hörmətiniz vardır.

**Musiqi-ritmli intellekt**

Bu intellekt səs və vibrasiya vasitəsilə yaranan "bilgi"dir. Çoxşaxəli intellektlər nəzəriyyəsinin orijinal tədqiqatında bu intellekt növü musiqi-ritmli intellekt adlansa da, o, təkcə musiqi və ritmlə

məhdudlaşmır. Buna görə də onu bəzən audial-ritmli intellekt də adlandırırlar, çünki bu intellekt növü səsin bütün sahələri ilə əlaqəlidir: tonlar, ritmlər və vibrasional səslər, musiqi və s. Əgər bu intellekt növü sizdə yaxşı inkişaf edibsə, siz musiqini və ritmi çox sevirsiniz. Həmçinin siz təbiətdə rast gəlinən səslərə qarşı çox həssassınız; cırcıramanın cüyültüsü, dama yağan yağış, yoldakı maşınların səsi. Arxa fonda musiqi olanda siz daha yaxşı işləyir və oxuyursunuz. Çox vaxt bir melodiyanı və ya ritmi bircə dəfə eşidən kimi onu eynilə təkrar etməyi bacarırsınız. Müxtəlif səs, ton və ritmlərin sizin üzərinizdə hiss edilə bilən təsiri ola bilər. Digərləri, üz ifadənizdə, bədən hərəkətlərinizdə və ya emosional reaksiyanızda tez-tez dəyişikliklər hiss edə bilərlər. Yəqin ki, siz həm də musiqi yaratmağı bacarır və müxtəlif tərzlərdə musiqilərə qulaq asmaqdan həzz alırsınız. Bundan əlavə siz səsləri, müxtəlif aksentləri və digərlərinin nitqini yamsılamağı bacarır, musiqi kompozisiyasında səslənən müxtəlif musiqi alətlərini asanlıqla ayırd edə bilirsiniz.

Qeyd olunmalıdır ki, insanlar fərqli intellekt növlərinə və güclü tərəflərə malikdirlər. Məsələn, kursa qəbul olunmaq üçün müsahibə edilmiş bir şagird yanlış qiymətləndirmə vasitəsi səbəbindən (zəif yazılmış müsahibə sualları, şagirdin qəbul olunmuş “ideal şagird” obrazıyla uyğunsuzluğu və ya digər yetərsiz qalan meyarlar ucbatından) kursa qəbul olunmaya bilər.

Bizim kollektiv olaraq müxtəlif şeylərdə bacarıqlı olan insanlara ehtiyacımız var. Balanslı təşkilat və komandalar mütləq müxtəlif intellekt növlərinə malik fərdlərin birləşməsindən yaradılmalıdır. Bu cür qurulmuş komanda bütün üzvlərinin eyni bacarıqlara malik olduğu qruplardan qat-qat daha üstündür. Bu səbəbdən Qardnerin çoxşaxəli intellektlər nəzəriyyəsi kurikulum planlaşdırılmasında, fənn kursu üçün fəaliyyətlərin və uyğun qiymətləndirmə strategiyasının seçimində istifadə oluna bilər. Şagirdlərin güclü xüsusiyyətlərini daha da inkişaf etdirən təlim həm də onların güclü olmadığı sahələrdə özünə inam hissini artıra bilər. Seçilən təlim nə qədər şagirdlərdə maraq yarada biləcək müxtəlif metod, fəaliyyət və qiymətləndirmə vasitələrindən ibarət olarsa, bu şagirdlərin səmərəli təhsili üçün bir o qədər şərait yaratmış olar.

Dediklərimizi ümumiləşdirsək, belə bir nəticəyə gələ bilərik. Şagirdlərin ehtiyaclarını mənalı və səmərəli yollarla ödəmək üçün müxtəlif təlim nəzəriyyələrini, öyrətmə strategiyalarını və digər pedaqoji vasitələri bir-biri ilə inteqrasiya edin. Qardnerin özü deyirdi ki, təlimi planlaşdırarkən təhsil işçiləri müəyyən bir nəzəriyyə və ya innovasiyanı əsas tutmamalı, şagirdlərin ehtiyaclarına və öz dərs demək tərzlərinə uyğun olaraq dəyərlər və təlim məqsədlərini adaptasiya etməlidirlər. Çoxşaxəli intellekt növlərini və şagirdlərin potensialını nəzərə almaqla müəllimlər öz təlim üsullarını və qiymətləndirmə metodlarını fərdiləşdirə bilər